# AZƏRBAYCANIN YERLİ QİYMƏTLİ GENEFONDLARI ƏSASINDA YARADILAN "MİL-QARABAĞ" VƏ "ABŞERON-QALA YENİ QOYUN CİNSLƏRİNİN YARADILMASI TARİXİNDƏN

**Əyyub BƏŞİROV**, *Azərbaycan Heyvandarlar Assosiasiyasının sədri*

*Respublika Elmi İstehsalat Azərdamazlıq Birliyinin rəhbərliyi ilə onun uzun illər qoruyub saxladığı genetik bazasında yaradılan yeni «Mil-Qarabağ» və «Abşeron-Qala» qoyunlarının yeni cins kimi təsdiq edilməsi üçün aprobasiyanın keçirilməsi haqqındakı təqdimata bizim tərəfimizdən uzun illər bu işə rəhbərlik etdiyimizdən rəy verilməsi lazım gəldi.*

Hər şeydən əvvəl mən qeyd etmək istərdim ki, akademik F.Ə.Məlikov adına Az.ETHİ-nun Abşeron heyvandarlıq təcrübə stansiyasının elmi işçiləri, kənd təsərrüfatı elmləri namizədləri, Azərbaycanın görkəmli yaradıcı qoyunçu seleksioner alimləri, uzun illər çiyin-çiyinə işləyib əməkdaşlıq, həmkarlıq və rəhbərlik etdiyim Morul Ələsgər oğlu Dəmirov (1964-94-cü illər) və Nəcəf Abbas oğlu Nəcəfov (1971-94-cü illər) 30-40 ildən çox bir dövr ərzində gecə-gündüz, yay-qış, isti-soyuq bilmədən, hətta məzuniyyət dövründə belə istirahət görmədən bütün çətinliklərə sinə gərərək böyük həvəslə bütün həyatlarını bu qiymətli yağlı quyruqlu, ətlik, xalça yunlu, südlük «Mil-Qarabağ» və «Abşeron-Qala» yeni cinslərinin yaradılmasına həsr etmişlər. Rəhbərlik etdiyim üçün bu iş və yeni yaradılmış bu əvəzolunmaz cinslər mənə həm doğma, həm əziz, olduğundan çox yaxşı tanışdır.

Qısa da olsa akademik F.Ə.Məlikovun rəhbərliyi altında və onun metodikası əsasında yaranmış yağlı quyruqlu, yarım zərif və yarım qaba yunlu yeni qoyun cinslərinin yaranma tarixindən bəhs etmək istərdim.

Bu yeni yarım zərif və yarım qaba yunlu, yağlı quyruqlu qoyun cinslərinin yaradılmasına ilk dəfə hələ keçən əsrin 40-50-ci illərində Qafqazın ayrı-ayrı bölgələrində akademik F.Məlikovun rəhbərliyi və metodikası əsasında başlanılmışdır.

M.D.Reçuloşvili və A.Q.Natroşvili tərəfindən Gürcüstan yarım zərif və yarımqaba yunlu yağlı quyruqlu yeni qoyun cinsləri 1944-cü ildə yaradılmış və yaxşılaşdırıcı cins kimi həm Gürcüstan respublikasında, həm də başqa respublika və vilayətlərdə – Tacikistanda və Şimali Qafqaz regionunda da geniş istifadə edilib.

Dağıstanda 1959-cu ildə T.N.Kərimov, A.V.Potanina və Ağalar Əliverdiev tərəfindən yeni yarım zərif yunlu yağlı quyruqlu Dağıstan qoyun cinsi, Kabardin Balkar respublikasında isə V.K.Kurziyevanın rəhbərliyi ilə

keçən əsrin 50-ci illərinin sonunda yarımqaba yunlu yağlı quyruqlu qoyun cinsi yaradılmışdır.

Bütün Qafqazda olduğu kimi Azərbaycanda da yağlı quyruqlu yarım zərif, yarımqaba qoyun cinslərinin yaradılmasına da ilk dəfə F.Məlikovun təklifi, metodik rəhbərliyi və təşkilatçılığı ilə Az.ETHİ-nun qoyunçuluq şöbəsinin kiçik elmi işçisi və mövzunun icraçısı E.B.Bəşirov (1950-ci il) Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutunun elmi kollektivi, (direktor akademik Musa Musayev), Böyükağa Əliyev, Nəriman Əhmədov və başqaları tərəfindən Kürdəmir rayonunun Qarabucaq və Gəncə-Qazax bölgəsinin qoyunçuluq təsərrüfatlarında damazlıq-seleksiya işləri aparılmış və 1949-60-cı illərdə yeni Azərbaycan yarım zərif yağlı quyruqlu qoyun cins qrupu yaradılmışdır. Sonralar keçən əsrin 60-cı illərində həmin yeni yaradılmış cins qrupuna mənsub olan qoyun sürüləri Qarabucaq təsərrüfatından və digər təcrübə təsərrüfatlarından Abşeronun qoyunçuluq (Qobu, Qobustan və b.) təsərrüfatlarına verilmişdir. Həmin qoyun sürüləri qiymətli damazlıq materialları kimi səmərəli istifadə edilərək yeni Abşeron yarım qaba yunlu, yağlı quyruqlu xalça yunlu qoyun cinsinin yaradılmasına əhəmiyyətli təsir göstərmişdir.

Bu işlər təkcə həmin cinsləri yaradanların yox, həm də Azərbaycanın biologiya və zootexnika elminin, respublikanın damazlıq heyvandarlığı sisteminin böyük əməyinin nəticəsi və qələbəsi olmaqla doğma xalqımıza və onun müstəqil Azərbaycan repsublikasına layiqli hədiyyəsidir. Yeni yaradılmış «Mil-Qarabağ» və «Abşeron» cinslərinin aprobasiyası ilə əlaqədar verilən təqdimatlarda giriş sözü, bu dövrdə görülən elmi və təcrübəvi işlər, tədbirlər yeni cinslərin bioloji və təsərrüfat xüsusiyyətləri standartı öz əksini tapmışdır. Lakin bu yeni cinslərin yaradlması tarixindən və cinslərin yaradılmasında böyük əməyi olan digər müəlliflər və icraçılar haqqında heç bir kəlmə də söz yazılmamışdır. Bu da təqdimatın ən böyük çatışmazlığı və yaradıcı müəlliflərin tarixi və qanunları zəif bilməsindən irəli gəlir. Onlar bu yeni cinslərin yaradılmasında yalnız özlərini müəllif hesab edərək, bu işdə damazlıq birliyinin, damazlıq təsərrüfatlarının və elmi müəssisələrin böyük kollektivinin rəhbərliyi və fəal iştirakı və damazlıq birliyinin təsərrüfatlarının bazasında olan genefondun əsasında yaranmasının rolunu və əhəmiyyətini tamamilə nəzərə almamış, təkcə özlərini müəllif kimi göstərmişlər. Bu da qaba surətdə qanunsuzluq və insafsızlıqdır.

Təqdimatda həm də ətraflı izahatla müəlliflərin şəxsi fəaliyyətləri nəticəsində uzun illər rəhbərliyimizlə damazlıq təcrübə təsərrüfatlarında mnlərlə, on minlərlə qoyunlarda fərdi bonitirə edilmiş «Mil-Qarabağ» və «Abşeron-Qala» qoyun cinslərinin xarakterisitikası, cinslərin yaradılma metodu və sxemləri onun məhsuldarlıq göstəriciləri: cins və yeni qrupları üzrə diri çəkiləri yağlı quyruq, ət, süd, bala və yun məhsuldarlığı illər və təsərrüfatlar üzrə izah edilmişdir. Uzun illər gördüyümüz elmi-praktiki işlərin nəticələri rəhbərlik etdiyim Azərdamazlıq birliyi tərəfindən istehsalata geniş tətbiqi və yeni cinslərin iqtisadi əhəmiyyəti barədə dəyərli məlumatlar da təqdimatda qeyd edilmişdir.

Müəlliflər bizim rəhbərliyimiz altında yeni cinslərin yaradılmasında çox mürəkkəb cins yaratma və seleksiya üsullarından istifadə edərək respublika damazlıq sisteminin genetik bazasında arzuedilən keyfiyyətlərə sahib olan və rekord göstəricilərə malik olan döllük qoçlardan maksimal istifadə edilməsinə və onlardan ən çox yüksək yaşama qabiliyyətinə malik bala alınmasına xüsusi üstünlük vermişlər. Bütün yuxarıda göstərilənlərin sayəsində sürülərdə keyfiyyət diyişikliyini arzu edilən tərəfə sürətləndirmişlər.

Bununla bərabər onlar çox ustalıqla görkəmli seleksionerlərə xas olan keyfiyyətlə ilbəil bütün sürülərdə şəxsən özləri, rəhbərlik etdiyimiz Azərdamazlıq birliyinin kollektivi ilə birikdə bonitirə aparıb az məhsuldar, zəif və arzu edilən tipə uyğun gəlməyən heyvanları çıxdaş etmişlər və təcrübə sürülərindən çıxarılmasını və ətiyə verilməsinə nail olmuşlar. Bu da imkan vermişdir ki, tezliklə istədiyimiz məqsədə çataq. Mənim yadımdadır, hələ Azərdamazlıq birliyinin rəisi işlədiyim dövrdə mən və 1989-cu ildən sonra xaricdə ezamiyyətdə olduğum dövrlərdə və ayrı-ayrı vaxtlarda məni əvəz edənlər, hörmətli İmanqulu Qurbanov, İnqilab Hüseynov, Nurəddin Bağırov, İsfəndiyar Zeynalov, Fərhad Hüseynov, Əşrəf Məmmədov, Xəndan Rəcəbli bu işə böyük qiymət verərək gündəlik nəzarətdə saxlamış, vaxtlı-vaxtında lazımi tədbirlər həyata keçirmiş və köməkliklər göstərmişik. Uzun müddətli fəaliyyətimiz nəticəsində bu cinslər üzrə damazlıq təsərrüfatlar yaradıb və onları təsdiq etmişik: İmişli rayonunun – Lenin, Jdanov, Ağdam rayonunun Natəvan adına təsərrüfatlarında (Qaradolaq – Mil-Qarabağ), Abşeron rayonunun «Güzdək», Qobu və Qobustan damazlıq sovxozlarında (Qala-Abşeron) cinslərindən, yerli yağlı quyruqlu qaba yunlu qoyun cinslərinin yaxşılaşdırılmasında damazlıq məqsədilə geniş istifadə etməklə ilbə-il damazlıq toğluların satılmasını və onlardan damazlıq, yeni-damazlıq - qız təsərrüfatlarının yaradılmasını təşkil etmişik.

1980-89-cu illərdə Abşeron, Neftçala, Xaçmaz, Göyçay, Qax, Salyan, Şamaxı, Dəvəçi, Saatlı, Sabirabad, Qobustan, Gəncə, Şəmkir, Goranboy və başqa rayonların təsərrüfatlarında cinslərin yeni damazlıq qız təsərrüfatlarının yaradılmasını təşkil etmişik. İlk 3 yeni damazlıq yardımçı təsərrüfatları, - 1984-85-ci illərdə bizim rəhbərliyimiz və iştirakımızla respublikada bu sahəyə rəhbərlik etdiyim üzümçülük və şərabçılıq komitəsinin təsərrüfatlarında Abşeronda 2 təsərrüfat (2№li Bakı çaxır zavodu və Bakı şampan zavodu) və Göyçay konyak zavodunda 1 təsərrüfat; - yardımçı damazlıq təsərrüfatları yaradıldı.

Bu təsərrüfatlarda olduqca yüksək nəticələr əldə edildi, zavodun direktorundan tutmuş fəhlələrinə kimi bu yeni cins qoyunlara maraq və məhəbbət, estetik zövq alma obyektinə çevrildi. Göyçay zavodunun direktorunu mən hər dəfə ora gedərkən zavodda yox, bu damazlıq qoyun fermasında görürdüm. O deyirdi ki, mən bir gün bu gözəl qiymətli heyvanları görməsəm gözümə yuxu getməz.

Böyük rus alimi, dünyada tanınmış seleksioner, uzun illər SSRİ-də (Moskvada) seleksiya və damzlıq Mərkəzi İnstitutunun direktoru, professor N.Baqriy Azərbaycana gələrkən (1986-cı ilin sentyabr ayında) yaradıcı müəllif N.Nəcəfovun iştirakı ilə mən ona Mərdəkan Gülçülük sovxozunun,

Bakı 2№li çaxır və şampan zavodlarının damazlıq yardımçı təsərrüfatlarının sürülərini göstərdikdə o, bu cinsə heyran qaldı. Sürüdən onu ayırmaq olmurdu. O dedi ki, mən dünyanın çox ölkələrində olmuşam, Çox yeni yaradılmış qoyun cinslərinin təsdiqində kmissiyaya sədrlik etmişəm. Çox qoyun cinslərilə yaxından tanışam, amma belə bir unikal qoyun cinsinə rast gəlməmişəm.

Heyvanların nəhəngliyi, yaraşığı xalça yunu, hədsiz dərəcədə inkişaf etmiş yağlı quyruğu bu böyük qoyunçu alimi heyrətə gətirmişdi.

O, təəccüblə soruşdu ki; indiyə qədər bu qiymətli cins hələ təsdiq edilməyib? 1987-ci ilin əvvəllərində Azərdamazlıq birliyinin 1986-cı il üzrə hesabatını Moskvada Ümumittifaq Damazlıq Şurasında məruzə etdiyim zaman yeni yaradılmış 2 qoyun, Mil-Qarabağ və Abşeron-Qala cinslərini qısa xarakterizə etdiyimi və onların təsdiqə tam hazır olmalarını bildirmişdim.

Hər iki cins alim və seleksioner-genetiklərdə böyük maraq oyatmışdı və o zaman yeni qoyun cinslərinin təsdiqi komissiyanın sədri olan akademik Medubekov Kılıbay (o vaxtları ÜİKT Akademiyasının vitse-prezidenti, Qazaxıstan Elmi Tədqiqat Qoyunçuluq institutunun direktoru Qazaxstan Kənd Təsərrüfatı Elmləri Akademiyasının Prezidenti, Qazaxstan Ali Sovetinin sədri) işlə tanış olduqdan sonra yüksək qiymət verdi və onların təsdiqə tam hazır olduğunu bildirdi. Bunn üçün lazımi sənədlərin hazırlanıb verilməsini xahiş etdi. Lakin müəlliflərin sənədləşməni gecikdirərək uzatdıqları və mənim təqaüdə çıxarılmağımla əlaqədar bu iş gecikdirildi.

Xatirimdədir. 1985-ci ilin əvvəlləri idi. Həmişə xatirəsini əziz tutduğum, böyük ağsaqqal və Azərbaycanda üzümçülük sahəsinin böyük təşkilatçısı və rəhbəri Yunis Qəhrəman oğlu Rzayevin müavini olduğum zaman 2№li Bakı çaxır zavodunun yardımçı təsərrüfatında Qala-Abşeron cinsli qoyunlardan ilk dəfə quzular almışdıq. Quzu alımı ilə əlaqədar fermaya getmişdim və orada maraqlı bir faktla qarşılaşdım. Fermanın müdiri uzun illər həvəskar qoyunçu və «Qala-Abşeron» qoyun cinsinin aludəsi idi. Onun başqa bir qoyunçu dostu həmin fermaya gəlmişdi. Birlikdə quzulara baxırdıq. Bir aylığı hələ tamam olmamış quzunu görüb tez qucağıma aldım. Quzunun eksteryer yaraşığı, hədsiz böyük quyruğu (4-5 kq olardı) bədəninin üçdəbir hissəsini təşkil edirdi, diqqəti xüsusi cəlb edirdi. Quzu erkək idi. Bütün quzulardan öz görkəmi, yaraşığı ilə seçilirdi. Bu quzuya hamı heyran qalmışdı. O həvəskar qoyunçu quzunu qucağına alıb üzünü dostuna, ferma müdirinə tutub bu quzunu ona verməsini xahiş etdi. Əvəzində Qala cinsindən 3 baş qiymətli damazlıq qoyun və qoç verəcəyini təklif etdi. Ferma müdiri də cavabında dedi ki, bir sürü qoyun versə də, yenə verməyərəm. Mən ondansa sənə canımı verərəm, amma, quzunu vermərəm. Mən o quzunun gələcəyi ilə yaşayıram. Məni bura gətirən elə bu qoyuna və belə quzulara olan böyük məhəbbətdir.

Bu cinslərin dövlət tərəfindən qiymətləndirilməsinə gəldikdə isə təkcə aşağıdakı iki faktı göstərmək kifayətdir.

1986-87-ci illərdə yeni yaranmış cinslərin, elita və elitarekord siniflərinə mənsub olan qoç-qoyunların nümunələri Moskvada, Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyyətləri sərgisində nümayiş etdirildi. Sərginin yüksək mükafatlarına , medallara və diplomlara layiq görüldü. Həm də nümayiş

olunan yeni qoyun cinsləri sərgi iştirakçılarının, sərgiyə gələnlərin xüsusi diqqətini cəlb etdi və böyük rəğbətini qazandı.

Stavropolda yerləşən Ümumittifaq Qoyunçuluq İnstitutunda alim-ekspertlər tərəfindən yeni yaradılmış Mil-Qarabağ qoyun cinsinin yarım qala, xalça yunu ən yüksək qiymətə layiq görülmüş, yeni genetik naliyyət kimi təsdiq edilmiş, baş müəllif Morul Dəmirova isə xüsusi dövlət sənədi, diplom, (sertifikat) verilmişdir.

Elə bilirəm həmin yeni yaradılmış cinslərə bundan artıq qiymət vermək olmaz. Xalqın seleksioner qoyunçularının və görkəmli alimlərin qiymətindən üstün daha nə ola bilər?! Yekun olaraq deyərdim ki, əgər camış Azərbaycanın qara brilliyantıdırsa, «Mil-Qarabağ» və «Abşeron-Qala» cinsləri onun almazıdır. Əvəzsiz, qiymətli, yüksək məhsuldar, yüksək keyfiyyətli, uzunömürlülük və sağlamlıq üçün qiymətli qida mənbəyi olan (quyruq, quzu əti, motal pendiri, qaymağı balla və b.) məhsulu dünya şöhrətli xalçalarımızı toxumaq üçün çox qiymətli xalça yunu verən, ekstremal iqlim şəraitinə möhkəm davamlı, yerli, az məhsuldar otlaqlardan səmərəli istifadə edən və ən yüksək gəlir gətirən yeni qoyun cinsləridir. Bütün bunları nəzərə alaraq mən hələ 1986-87-ci illərdə Moskvada və 1993-94-cü illərdə isə respublikamızda bu təkliflərlə çıxış etdim:

1. Yeni cinsi tezliklə təsdiq etmək üçün təqdimat, qüsurları və düzəlişləri aradan qaldırmaqla təsdiq üçün qəbul edilsin.

2. Bunun üçün komissiya yaradılsın və onun sədri Azərdamazlıq birliyinin rəisi, Damazlıq Şurasının sədri təsdiq edilsin.

3. Bütün zəhmət, ağıl və səylərini, həyatının ən gözəl dövrlərini bu işə qurban verdikləri yeni «Mil-Qarabağ» və «Abşeron-Qala» cinslərinin yaradıcıları olan hörmətli seleksiyaçı alimlər Morul Dəmirova və Nəcəf Nəcəfova cinsin yaradıcı müəllifliyi, bununla bərabər həm də genefondun sahibləri və ona gündəlik rəhbərlik və nəzarət edənlərə, yaratdığımız və təsdiq etdiyimiz damazlıq təsərrüfatlarında bu cinsləri yetişdirənlərə, akademik F.Ə.Məlikov adına Az.ETHİ-nun və onun Abşeron təcrübə stansiyasına, nazirlik və rayonların bu sahədə əməyi olan rəhbər və mütəxəssislərinin də müəlliflərin və icraçıların siyahısı tərtib edilib Respublika Kənd Təsərrüfatı Nazirliyinin əmri ilə təsdiq edilməlidir.

4. Bundan əlavə onlara respublikanın ən yüksək mükafatı verilməklə Morul Ələsgər oğlu Dəmirova və Nəcəf Abbas oğlu Nəcəfova yaratdıqları yeni cinsin hazırladıqları yeni məruzələr və yazdıqları əsərləri əsasında kənd təsərrüfatı elmləri doktoru elmi dərəcəsi verilməsi barədə məsələ Ali Attestasiya Komissiyası qarşısında qaldırılsın. Yeni cinsin yaradılması ilə əlaqədar M.Dəmirov 1964-cü ildən, və N.Nəcəfov 1971-ci ildən hər il elmi hesabat tərtib etmiş

çoxlu elmi və elmi-praktiki populyar əsərlər yazıb, çap etdirmişər, cinslərin yeni bonitirə təlimatını və uzunillik kompleks-seleksiya damazlıq iş planını bizim rəhbərliyimiz və fəal iştirakımızla işləyib hazırlamış və Azərdamazlıq birliyində baxılıb təsdiq edilərək istifadəyə verilmişdir.

5. Yerli yağlı quyruqlu və xalça yunlu qoyun cinslərindən ən yüksək məhsuldar olan «Mil-Qarabağ» və «Abşeron-Qala» qoyun cinsləri yaxşılaşdırıcı cins kimi demək olar ki, respublikanın əsas qoyunçuluq rayonlarında geniş yayılaraq, qoyun cinslərinin yaxşılaşdırılmasında müsbət təsirini göstərir.

6. Gecikdirilmədən yaxın gələcəkdə Abşeron təcrübə stansiyasına təklif edilsin ki, Azərdamazlıq birliyinin rəhbərliyi ilə və onun genetik bazasında Morul Dəmirovun və Nəcəf Nəcəfovun seleksiyası ilə yeni yaradılmış «Mil-Qarabağ» və «Abşeron-Qala» cinslərini təsdiq etmək üçün Kənd Təsərrüfatı Nazirliyinin damazlıq şurasına və ekspert komissiyasına təqdimatları yekunlaşdıraraq təqdim etsinlər.

Ötən əsrin sonlarında gedən tarixi proseslər, bir sıra obyektiv-subyektiv səbəblər nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında, o cümlədən damazlıq sistemində də gedən ziyanlı tendensiyasovetlər dövründə möhəkəmliyi, sistemliyi ilə seçilən damazlıq sisteminin, damazlıq təsərrüfatının katostrafik həddə çatdırmışdı. Sovet İttifaqının dağıdılması, erməni aqressiyası, 1990-92-ci illərdəki hərc-mərclik damazlıq təsərrüfatları dağıldı. Bu səbəblərdən keçid dövründə dağıntının qarşısını almaq üçün hökumət damazlıq sahəsində qanuni baza yaratmalı və sahəni gündəlik dövlət nəzarətinə almalı idi. Bununla əlaqədar olaraq o dövrdə (1992-ci il) Damazlıq Biliyinin baş direktoru Əşrəf Məmmədovla birlikdə qanun layihəsi işləyib hazırladıq və Milli Məclisə təqdim etdik. Bu zaman qanun layihəsinə qarşı çıxan və bunu lazım bilməyənlər də tapıldı. Ona görə də biz, professor Nəriman Şirinov, Arif Mustafayev və mən bu layihənin dövlət əhəmiyyətini nəzərə alaraq rəy hazırladıq. Yenidən Milli Məclisə təsdiq üçün təqdim etdik. Xoşbəxtlikdən bu iş ümummilli liderimiz, mərhum prezident Heydər Əliyevin yenidən hakimyyətə qayıtdığı dövrə düşdü. Təqdim etdiyimiz qanun layihəsi də o böyük şəxsiyyətin təklifi ilə Milli Məclis tərəfindən təsdiq edildi.

Aşağıda həmin qanun layihəsinə verdiyimiz rəyi oxuculara təqdim edirik.

# «Heyvandarlıqda damazlıq işi haqqında» Azərbaycan Respublikasının Qanun Layihəsinə RƏY

RİE Azərdamazlıq Birliyinin təqdim etdiyi Azərbaycan Respublikasının «Heyvandarlıqda damazlıq işi haqqında» qanun layihəsi ilə tanış olduq və bununla əlaqədar aşağıdakıları qeyd etmək istərdik.

Hər şeydən əvvəl damazlıq heyvandarlığın böyük dövlət və ümumxalq əhəmiyyətinə malik olmasının sübutuna ehtiyac olmamasını qeyd etmək istərdik. Bütün dünyanın qabaqcıl heyvandarlıq ölkələrində də damazlıq işi mühüm dövlət işi sayılır. Qanunlaşdırılır və dövlət nəzarəti altında aparılır. Bu vaxta kimi bu sahədə qanunun olmaması xalqımızın əsrlər boyu yaratdığı əvəzolunmaz, yüksək qiymətli genefondları: / Şirvan, Qarabağ və onun qaradolaq tipi əsasında yaradılmış yeni Mil-Qarabaq cinsi, Qala və onun əsasında yaradılmış yeni Abşeron cinsi, balbas, mazex, bozax, ləzgi, gödək və cəro, yağlı quyruqlu, xalçayunlu qoyun cinsləri, Azərbaycan camışı, zebusu, Kuba zebusu və onların yüksək məhsuldar hibridləri, Azərbaycan dəvəsi, Azərbaycanın qiymətli Qabaqtəpə arı cinsi, quş və balıq cinsləri qiymətli ipəkqurdu cinsləri və s. səriştəsiz, ağılsız və vicdansız təsərrüfat və rayon rəhbərləri tərəfindən kəskin surətdə azalmış və bir neçəsi tamamilə məhv edilmişdir, damazlıq işinin başqa mühüm sahələrində görülən böyük dövlət əhəmiyyətli işlərin (başqa ölkə və respublikalardan gətirilmiş qiymətli genefondun düzgün istifadə edilməməsi və qorunub saxlanmaması, süni mayalamaya laqeyd münasibət, yeni tiplərin, cinslərin, xəttlərin, ailələrin, naxırların, sürülərin və s. yaradılmamasından olan neqativ fəaliyyətlər və s.) səriştəsiz təsərrüfat və rayon rəhbərləri və d. tərəfdən açıq-aşkar pozulmuş və bununla əlaqədar onların haqqında heç bir tədbir görülməmişdir.

Lakin buna baxmayaraq "Azərdamazlıq birliyi və onun yerlərdəki təşkilatları bu çətin şəraitdə hörmətli respublika rəhbərlərinin, yerlərdə isə səriştəli və ağıllı rayon və təsərrüfat rəhbərlərinin köməkliyi sayəsində xeyli diqqətəlayiq işlər görülmüş, bu işi xeyli inkişaf etdirmişlər. Dünyanın qiymətli genefondunun respublikaya gətirilib istifadə edilməsi dondurulmuş toxumla süni mayalanmanın təşkilində damazlıq təsərrüfatların yaradılması və bununla əlaqədar az da olsa Azərbaycan camışı cinsinin, Qarabağ, Şirvan, «Mil-Qarabağ», «Abşeron Qala» qoyun cinslərinin və digər cinslərinin qorunub tamamilə aradan çıxmamasının qarşısının alınması və s. görülən mühüm əhəmiyyətli işləri qeyd etməmək insafsızlıq olardı. İndi respublikamız müstəqillik qazandığı bir dövrdə Allahın qoruyub saxladığı və bizim üçün göndərdiyi, xalqımızın dünyaşöhrətli oğlu, ağsaqqalı, böyük siyasətçi və dövlət xadimi Heydər Əliyev kimi prezidentimiz olan bir dövrdə, hər sahə demokratik qanunlar əsasında inkişaf etdirildiyi bir dövrdə bu vacib və dövlət əhəmiyyətli işdə də qanunun olması və gündəlik fəaliyyət göstərməsi ən vacib məsələlərdən biridir. Çünki qanun olmadıqda demokratiya anarxiyaya çevrilir. Məncə, ancaq Azərbaycan xalqının düşmənləri bu qanunun bizdə olmamasına tərəfdar çıxa bilər. Bu qanunun qəbul olunmasının heç kimə zərəri dəyməz, əksinə mühüm dövlət işi olan damazlıq işinə böyük təkan verər, dayaq durardı. Bu işin tamamilə proqressiv inkişafına geniş imkanlar yaradırdı.

Damazlıq işi bütün dünyanın qabaqcıl heyvandarlıq ölkələrində olduğu kimi gündəlik dövlət nəzarəti altında olmalıdır. Lakin bu sahədə qanun olmadan bunu etmək qeyri mümkündür. Əks tədqirdə yenə kim nə istəyir edəcək, amma onların qarşısını almaq, onlarla mübarizə etmək mümkün olmayacaq. Bu da anarxiyaya gətirib çıxaracaq.

Bir sözlə, demokratiya dövründə hər sahənin qanunu əsasında fəaliyyət göstərib inkişaf etdiyi kimi, damazlıq heyvandarlıq da Qanun əsasında fəaliyyət göstərməli və inkişaf etdirilməlidir. Ona görə də tanış olduğum qanun layihəsi respublikamızda birinci (1994-cü il) dəfə hazırlandığı üçün hüquqi tərəfdən və texniki redaktə edildikdən sonra təsdiq edilmək üçün Azərbaycan Respublikasının Ali Sovetinə təqdim edilə bilər.

Bir də ən böyük faktor olan elmi sahənin "Azərdamazlıq Birliyində fəaliyyət istehsalatla vəhdəti yaradılmalıdır. Bu da bütün qabaqcıl heyvandarlıq ölkələrində olduğu kimi, damazlıq sahənin intensiv inkişafına səbəb olar. Bununla əlaqədar elmlə təcrübənin birliyini təmin etmək məqsədi ilə yeni elmi genetika və damazlıq sahəsində Mərdəkanda yaradılmış Abşeron Elmi Tədqtqat Stansiyasının Pirşağıda təşkil edilmiş Mərkəzi Respublika süni mayalanma stansiyasını birləşdirərək bunun əsasında Respublika Damazlıq Heyvandarlığın Genetika və Seleksiya Elmi Mərkəzi (dondurulmuş toxumun genobankı ilə birlikdə) yaradılması hazırki dövrdə ən böyük əhəmiyyətli dövlət tədbiri kimi həyata keçirilməlidir.

Yuxarıda haqqında bəhs edilən qanun mərhum prezidentimiz, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti zamanı, 1994-cü ildə Milli Məclis tərəfindən qəbul edildi.

İndi bu böyük dövlət əhəmiyyətli sahənin daha da inkişaf etdrmək və təkmilləşdirmək xüsusi olaraq, vahid dövlət rəhbərliyi və nəzarəti altında saxlamaq, respublikanın bütün rayonlarında damazlıq işlərini, süni mayalanmanı qurub inkişaf etdirmək və gündəlik dövlət nəzarətində saxlamaq məqsədi ilə bu yaxınlarda (2007-ci il) yeni, ikinci qanun layihəsi Milli Məclisdə müzakirə edildi. Bu böyük dövlət və ümumxalq əhəmiyyətli damazlıq haqqındakı ikinci qanunun hörmətli prezidentimiz İlaham Əliyevin dövründə Milli Məclis tərəfindən təsdiq ediləmsi böyük təşəkkürə və minnətdarlığa layiqdir.

Seleksiya və damazlıq planlarının tərtib edilməsi, cins, tip, xətlər, ailələr, naxırların təkmilləşdirilməsi və yenilərin yaradılması, süni mayalanma, embrion köçürmə təlimat planlarının və kitablar yazılması, dövlət damazlıq kitablarının aparılması, immunogenetika laborotoriyasının təşkili, seleksioner və texniki kadırların təkmilləşdirilməsi, hazırlanması və s. Elmin iştirakı və metodiki rəhbərliyi ilə getməlidir.

Bunsuz irəli hərəkət korun hərəkətinə bənzər.

Son olaraq qeyd etmək istərdim ki, kənd təsərrüfatı Nazirliyinin köməyi ilə yeni yaranmış Respublika Damazlıq Şurası tərəfindən 2007-ci ilin iyun ayında yeni qiymətli cins kimi , Mil-Qarabağ və Abşeron_Qala yağlı, quyruqlu, yarım zərif yunlu yeni qoyun cinsi kimi təsdiq edildi. Buna görə də Kənd Təsərrüfatı Nazirliyinə və respublika Damazlıq Şurasına dərin təşəkkürümü bildirirəm. Axır ki, bu cinslər böyük, çox qiymətli genefond və milli sərvət kimi xalqımızın istifadəsinə verildi.